AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
# RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
18 YANVAR 2019-cu il CÜMƏ № 13 (6340) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyi tamam olur.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının çoxəsrlik mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr vermiş söz ustası Cəlil Məmmədquluzadənin 150 illiyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 yanvar 2019-cu il.**

## Azərbaycan Respublikasında özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında özəl teleradio yayımçılarının ölkə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, xaricdə yaşayan azərbaycanlıların öz vətənləri haqqında daha dolğun məlumatlandırılması, Azərbaycan xalqının mədəniyyətinin və milli-mənəvi dəyərlərinin təbliği sahəsində fəaliyyətinin stimullaşdırılması, həmçinin texniki imkanlarının artırılması və əhatə dairəsinin daha da genişləndirilməsi zəruriliyini nəzərə alaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasına 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 yanvar 2019-cu il.**

# Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı: dünyanın enerji xəritəsində yeni hadisə

*Hazırda qlobal geosiyasi səviyyədə mürəkkəb və risklərlə dolu proseslər gedir. Bu, bütövlükdə dünyanı bir sıra sahələrdə qeyri-müəyyənliklərlə üz-üzə qoyur. Ekspertlər ümumilikdə bəşəriyyətə fayda verə biləcək əməkdaşlıq formatlarının vacibliyini vurğulayırlar. Həmin bağlılıqda Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı ekspertlərin marağına səbəb olub. Bu dövlətlər mürəkkəb geosiyasi mənzərəsi olan məkanda yerləşiblər. Rusiya və Türkiyə böyük dövlətlər kimi dünya siyasətinə təsir edə bilirlər. Azərbaycan Cənubi Qafqazın lider dövləti olaraq müstəqil siyasətini davamlı olaraq aparır. Bununla yanaşı, Rusiya və Azərbaycan zəngin enerji ehtiyatlarına malikdirlər. Həmin səbəbdən bu üç dövlətin əməkdaşlığı regional və qlobal miqyasda geosiyasi əhəmiyyət kəsb etməkdədir. Bu kontekstdə bir sıra vacib məqamları analiz üzərində geniş dayanmağa ehtiyac duyuruq.*

### Ankara-Bakı-Moskva: əlaqələrdə tarixi mərhələ

Azərbaycan rəhbərliyi yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi artıq beynəlxalq aləmdə konkret imicə sahibdir. Prezident İlham Əliyevin irəli sürdüyü və reallaşması üçün ciddi fəaliyyət göstərdiyi əməkdaşlıq modelləri getdikcə daha çox səmərə verməkdədir. Bunu dünyanın böyük dövlətlərinin liderləri də etiraf edirlər. Təcrübə göstərir ki, rəsmi Bakının təşəbbüsü ilə son illər Rusiya, Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Türkmənistan arasında münasibətlər daha da inkişaf edib və daha əhatəli olub. Bu sırada Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı ekspertləri daha çox maraqlandırır.



Bu cür reaksiyanın səbəbi aydındır. Rusiya və Türkiyə Avrasiyada söz sahibi olan ölkələrdir. Son illər Moskva ilə Ankara arasında əlaqələr sürətlə inkişaf edir. Türkiyənin NATO üzvü olmasına baxmayaraq, bu, hərbi sahəni də əhatə etməyə başlayıb. Bunun fonunda iki böyük dövlət arasında siyasi, mədəni, nəqliyyat, enerji, turizm və başqa vacib sferalarda qarşılıqlı faydalı əməkdaşlıq inkişafdadır.

Bəzi dövlətlərin buna qısqanclıqla yanaşmasına baxmayaraq, Ankara və Moskva əlaqələri yeni səviyyəyə yüksəltməkdə qərarlıdırlar. Burada Azərbaycan faktorunu da unutmaq olmaz. Məsələ ondan ibarətdir ki, məhz Azərbaycan iki böyük qonşu dövlət arasında əməkdaşlığın inkişafına özünün töhfələrini verməkdədir. İndi faktiki olaraq bir çox sahələr üzrə bu üç ölkənin əməkdaşlığından danışmaq mümkündür. Bu proses o dərəcədə inkişaf edib ki, artıq ekspertlər onun geosiyasi təsirindən bəhs edirlər.

Rusiyanın "Rossiya-24" telekanalına müsahibəsində Prezident İlham Əliyev həmin bağlılıqda öz mövqeyini ifadə edib. Azərbaycanın dövlət başçısı deyib: "Bu gün dünyanın enerji xəritəsində bir növ Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı yaranıb. Bu əməkdaşlığın həm ikitərəfli, həm də üçtərəfli planda böyük perspektivləri var".

İlham Əliyevin bu fikirlərinin ciddi geosiyasi mənası vardır. Onun bir aspekti Prezidentin sonrakı fikirlərində açılır. Ölkə rəhbəri fikirlərini inkişaf etdirərək ifadə edib: "Biz enerji layihələrimizi hələ 2000-ci ilin əvvəllərində neft-qaz kəmərlərinin tikintisi ilə həyata keçirməyə başlamışıq. Çünki dünya bazarlarına çıxmaq üçün bizə mütləq infrastruktur qurmalı idik. Bizim açıq okeana çıxmaq imkanımız yoxdur. Rusiya nisbətən yaxın vaxtlarda bu istiqamətdə addımlar atıb".

**(davamı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunu optimallaşdırmaq və idarə edilməsini təkmilləşdirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi ləğv edilsin və onun funksiyaları Nazirliyin Aparatına verilsin.

**2.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyinin əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi yaradılsın.

**3.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallar və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi ləğv edilsin.

**5.** Bakı şəhərində, habelə "ASAN xidmət" mərkəzlərinin yerləşdiyi Azərbaycan Respublikasının digər inzibati ərazi vahidlərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətləri yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilsin.

**6.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin saxlanılması üçün hər il üçün dövlət büdcəsindən ayrılan vəsaitin (dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) istisna olmaqla) yuxarı həddi Nazirliyin tabeliyindəki qurumların ("AzİnTelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti istisna olmaqla) dövlət büdcəsinə ödədiyi dividendin cəmi məbləğinin yuxarı həddi ilə məhdudlaşır.

**7.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

*7.1.* hüquq mühafizə və hərbi sahələrdə fəaliyyət göstərən dövlət orqanlarının və qurumlarının fəaliyyətinin daha səmərəli və düzgün təşkili, idarəçiliyinin təkmilləşdirilməsi, eyni və ya oxşar səlahiyyətlərin daha optimal həcmdə resurs sərf edilməklə həyata keçirilməsi məqsədilə həmin dövlət orqanlarının və qurumlarının sayının, saxlanma xərclərinin və işçilərinin say həddinin optimallaşdırılması ilə bağlı təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*7.2.* mərkəzi icra hakimiyyəti orqanlarının, habelə Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan (tabeliyindəki) elm, elmi tədqiqat, araşdırma, ixtisasartırma və digər bu kimi sahələrə məşğul qurumların (institut, mərkəz, təhsil müəssisəsi və s.) fəaliyyətində səmərəliliyi artırmaq və onların idarə edilməsini təkmilləşdirmək üçün təkliflər hazırlanması məqsədilə İşçi Qrup yaradılmasını və müvafiq təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsini altı ay müddətində təmin etsin.

**8.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*8.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*8.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*8.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*8.4.* bu Fərmanın 5-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Vergilər Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Qida Təhlükəsizliyi Agentliyinin və Milli Arxiv İdarəsinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərini bilavasitə icra edən bölmələrinin ştat vahidlərinin ümumi say həddi daxilində həmin dövlət orqanlarının işçilərinin ümumi say həddinin azaldılması ilə bağlı təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*8.5.* Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki Akkreditasiya və Nostrifikasiya İdarəsinin ləğv edilməsinin və onun funksiyalarının Nazirliyin Aparatı vasitəsilə həyata keçirilməsinin təmin edilməsi ilə bağlı bir ay müddətində tədbirlər görsün;

*8.6.* Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki qurumlarla bağlı aşağıdakı tədbirlərin görülməsini təmin etsin və bu barədə bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

8.6.1.Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun, Azərbaycan Respublikası Təhsil İnstitutunun, İstedadlı Uşaqlarla İş Mərkəzinin və Respublika Elmi-Pedaqoji Kitabxanasının vahid qurumda birləşdirilməsi;

8.6.2.Respublika Bədən Tərbiyəsi Mərkəzinin və "Təhsil" Respublika İdman Mərkəzinin vahid qurumda birləşdirilməsi;

*8.7.* üç ay müddətində:

8.7.1.mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, dövlət adından yaradılan publik hüquqi şəxslərdə və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə xidməti nəqliyyat vasitələri ilə təmin edilməli vəzifələrin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

8.7.2.bu Fərmanın 8.7.1-ci yarımbəndinə əsasən müəyyən olunacaq siyahıdan kənarda qalan vəzifələrdə işləyən şəxslərə xidmət edən xidməti nəqliyyat vasitələrinin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin balanslarından çıxarılaraq özəlləşdirilməsi üçün Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edilməsini təmin etsin və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*8.8.* Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və onun yanında Dövlət Xəzinədarlıq Agentliyinin əsasnamələrinin layihələrini, habelə işçilərinin say həddi barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*8.9.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**9.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Milli Arxiv İdarəsi və Dövlət İmtahan Mərkəzi bu Fərmana əsasən ləğv olunan dövlət orqanlarında işləyən dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"na uyğun olaraq tədbirlər görsünlər.

**10.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti bu Fərmana əsasən ləğv olunan dövlət qurumlarında (struktur bölmələrində) işləyən işçilərin təbeliklərində olan digər qurumlarda və ya struktur bölmələrində müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görsünlər və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

**11.** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

*11.1.* mərkəzi icra hakimiyyəti orqanlarının informasiya sistemlərinin inventarizasiyası və ekspertizasını həyata keçirsin, bu sahədə idarəetmənin təkmilləşdirilməsi və xərclərin optimallaşdırılması, o cümlədən mərkəzi icra hakimiyyəti orqanlarının elektron informasiya sistemlərinin fəaliyyətinin mərkəzləşdirilmiş qaydada Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin DATA mərkəzi vasitəsilə həyata keçirilməsinə dair təklifləri altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*11.2.* "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanında onun üçün nəzərdə tutulmuş, habelə növbəti illərin dövlət büdcəsində nəzərdə tutulacaq vəsait həddində dividendin tabeliyindəki qurumlar tərəfindən dövlət büdcəsinə ödənilməsini təmin etsin.

**12.** Mərkəzi icra hakimiyyəti orqanları bu Fərmanın 11.1-ci bəndindən irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müvafiq şərait yaradılmasını və kömək göstərilməsini təmin etsinlər.

**13.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 yanvar 2019-cu il.**

# “Times of San Diego” qəzetində Cocuq Mərcanlı kəndinin bərpası barədə məqalə dərc olunub



Opinion: From The Perspective of Azerbaijan, America Is Still a Beacon

POSTED BY EDITOR ON JANUARY 15, 2019 IN OPINION | 90 VIEWS | 0 COMMENTS | LEAVE A COMMENT

Share This Article:

BAKU INTERNATIONAL HUMANITARIAN FORUM
BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMU
БАКИНСКИЙ МЕЖДУНАРОДНЫЙ ГУМАНИТАРНЫЙ ФОРУМ

Azerbaijan President Ilham Aliyev at the opening ceremony for the International Humanitarian Forum. Courtesy of the forum

By Raoul Lowery Contreras

I spent a week mingling with delegates from 90 nations at the 6th International Humanitarian Forum in Baku, Azerbaijan. Including me, three were from San Diego — a writer, lawyer and college professor. Being a student of cultural geography, I asked everyone I met where they were from.

Cruise Deals You Must See

These Cruise Deals Will Make You Want To Book Today. Learn More

Yahoo Search

GET TIMES OF SAN DIEGO BY EMAIL

Our free newsletter is delivered at 8 a.m. daily.

Please enter email address:

SUBSCRIBE

1 Stock for

**ABŞ-ın “Times of San Diego” qəzetində siyasi icmalçı və “Dağlarda qətl: Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi” kitabının müəllifi Raul Kontrerasın məqaləsi dərc olunub. Müəllif Bakıda keçirilmiş 6-cı Beynəlxalq Humanitar Forumla bağlı təəssüratlarını, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və cəbhə bölgəsinə səfəri haqqında mülahizələrini oxucularla bölüşüb.**

AZƏRTAC xəbər verir ki, müəllifin yazdığına görə, bütün irqlərə və dinlərə mənsub olan insanlarla birlikdə Bakı Beynəlxalq Humanitar Forumunda iştirakı onda antisemit və ümumilikdə qeyri-tolerant şəxslərin fikirlərinin qəbuledilməz olduğuna dair qənaəti gücləndirib. Kontreras qeyd edir: “Tale elə gətirdi ki, Pitsburq sinaqoqunda atışma günündə mən bu yaxınlarda Azərbaycanda 150 ailə üçün bərpa edilmiş kənddə oldum. Cocuq Mərcanlı adlanan bu kənd paytaxtdan 300 kilometrə yaxın məsafədə yerləşir və 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd üç il əvvəl işğaldan azad olunub. Burada yaşayan 450 azərbaycanlı ailəsi həyatlarına təhlükə yarandığından öz evlərini tərk etməyə məcbur olub. Sağ qalanlar məcburi köçkünlərə çevrilib və Birləşmiş Millətlər Təşkilatının da qeydə aldığı bir milyon azərbaycanlı qaçqının siyahısına əlavə olunublar”.

1993-cü ildə baş vermiş faciələrdən bəhs edən müəllif yazır ki, Araz çayı üzərindən İrana keçmək istəyən bir çox dinc insanlar həlak olublar.

Məqalədə diqqətə çatdırılır ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistanın işğalçı qoşunlarının Azərbaycanın ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməyə baxmayaraq, vəziyyət dəyişməyib və Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir. Lakin üç il əvvəl Azərbaycan Silahlı Qüvvələri uğurlu əməliyyat həyata keçirərək Ermənistanın işğal etdiyi torpaqların kiçik bir hissəsini, o cümlədən Cocuq Mərcanlı kəndini azad ediblər. Müəllifin yazdığına görə, Cocuq Mərcanlı bütün Qafqaz regionunda xoş gələcəyin müjdəçisidir. Kontreras vurğulayır: “Azərbaycan hökuməti Cocuq Mərcanlıda yeni evlər tikib və dağıdılmış məscidi, mülki tikililəri, məktəb binasını bərpa edib. 1993-cü ildə buradan didərgin düşən 150 kənd sakini artıq öz evlərinə qayıdıb. Daha 300 ailə onlar üçün tikiləcək yeni evlərə qayıdacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda Qərb standartları üzrə inkişaf davam edir. Nəticədə isə gələcəyə ümidlə baxan müasir dövlət yaranıb. Cocuq Mərcanlı ölkənin liderinin səylərini təcəssüm etdirir”.

**AZƏRTAC**

# Azərbaycan ilə İran arasında bütün sahələrdə yaxşı əlaqələr mövcuddur

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov yanvarın 17-də İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə İran arasında bütün sahələrdə yaxşı əlaqələrin olduğunu bildirən Baş nazir hər iki ölkə rəhbərlərinin birgə səyləri nəticəsində bu münasibətlərin daha da inkişaf etdiyini vurğulayıb. Qeyd edib ki, əlaqələrimizin genişləndirilməsi, o cümlədən mühüm layihələrin həyata keçirilməsi istiqamətində prezidentlərimiz tərəfindən atılan addımlar ölkələrimizin və xalqlarımızın maraqlarına xidmət edir.

Novruz Məmmədov qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd edərək, Məhəmməd Baqerinin ölkəmizə bu səfərinin müdafiə sahəsində əməkdaşlığın daha da inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Məhəmməd Baqeri Azərbaycana səfərindən və keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İranın mövqeyini xatırladan Baş Qərargah rəisi bildirib ki, Ermənistan Azərbaycanın tarixi torpaqlarını işğal edib və ölkəsi münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həllinin tərəfdarıdır.

Baş nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə görə İran tərəfinə minnətdarlığını ifadə edib.

Məhəmməd Baqeri hər iki ölkənin xalqları arasında böyük tarixə malik əlaqələrin olduğunu bildirib. O, Xəzərin hüquqi statusuna dair Konvensiyanın imzalanmasının ölkələrimiz arasında yeni əməkdaşlıq imkanlarının yaranması baxımından əhəmiyyətini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

*Məhəmməd Baqeri:*

# İran Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyir

**Son illər Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi nəticəsində ölkələrimiz arasında iqtisadi, siyasi və digər sahələrdə mühüm irəliləyişlər əldə olunub. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, eləcə də İran İslam Respublikası qurulandan bəri İrandan Azərbaycana ilk dəfə hərbi və müdafiə sahəsində yüksək səviyyəli nümayəndə heyətinin səfəri müvafiq sahələrdə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Bakıya səfəri ilə əlaqədar fikirlərini bölüşən İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Baqeri mətbuat nümayəndələri üçün təşkil olunan brifinqdə deyib.

Məhəmməd Baqeri diqqətə çatdırıb ki, İran Azərbaycanı özü üçün qonşu, dost və qardaş ölkə hesab edir. Lakin biz münasibətlərimizin bu səviyyədə olması ilə kifayətlənə bilmərik. İki ölkə arasında müştərək layihələr, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi, Rəşt-Astara dəmir yolu xəttinin çəkilişi, eləcə də digər infrastruktur və yol-nəqliyyat layihələri icra olunmaqdadır. Bu layihələr icra olunduqdan sonra iki ölkə arasında iqtisadiyyat və ticarət sahələrində əlaqələr daha da genişlənəcək və inkişaf edəcək. İran Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib və Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll olunmasını arzulayır.

Məhəmməd Baqeri qeyd edib ki, İran, eləcə də Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılması, məcburi köçkünlərin və qaçqınların problemlərinin həll olunması, onların doğma yurd-yuvalarına qayıtması məsələsinin həll olunmasını istəyir.

General-leytenant M.Baqeri deyib: “Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun dəvəti ilə ölkənizə etdiyim bu səfər çərçivəsində, o cümlədən aidiyyəti qurumların rəhbərləri ilə keçirilən səmərəli görüşlərdə ikitərəfli hərbi və müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr apardıq və müəyyən razılıqlar əldə olundu. Düşünürük ki, gələcəkdə bu sahədə əlaqələrimizi daha da inkişaf etdirə biləcəyik. İki ölkənin sərhədləri də sülh və dostluq sərhədləridir və ölkələrimizin sərhəd komandanları bu sahədə böyük işlər görürlər. Ümid edirik ki, bu sabitlik və sülh sərhədləri gələcəkdə də hər iki ölkə tərəfindən daha yaxşı qorunacaq və ölkələrimiz arasında insanların gediş-gəlişi, malların nəqli üçün daha yaxşı şərait yaradılacaq”.

Baş Qərargah rəisi bildirib ki, Xəzəryanı dövlətlər, eləcə də Azərbaycan ilə İran arasında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul olunması böyük irəliləyişdir. Bu konvensiya imkan verəcək ki, gələcəkdə Xəzər dənizində əməkdaşlığı daha da genişləndirək və birgə hərbi təlimlər təşkil edə bilək.

**AZƏRTAC**

# Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı: dünyanın enerji xəritəsində yeni hadisə

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan öncədən düşünülmüş şəkildə enerji siyasətini milli maraqlara uyğun qurub. Belə ki, passiv dövlət kimi gözləməyərək, özünün açıq okeana çıxmaq ideyası üzərində fəal surətdə işləyib. Bunun üçün uyğun infrastruktur yaradılmalı idi.

Bakı onu nəzərə alırdı ki, Rusiya kimi böyük dövlət nisbətən yaxın vaxtlarda açıq okeana çıxış istiqamətində fəallıq göstərib. Bu səbəbdən də Azərbaycan optimal variant kimi Bakı-Tbilisi-Ceyhan istiqamətini seçib. Bu, Azərbaycan-Türkiyə əlaqələrini geosiyasi-praqmatik müstəviyə yönləndirməkdə əhəmiyyətli rol oynayıb. Konkret ifadə etsək, Azərbaycan rəhbərliyinin uzaqgörən siyasəti nəticəsində Azərbaycanla Türkiyə əməkdaşlığı qarşılıqlı faydalılıq prinsipinə uyğun olaraq inkişaf etməyə başlayıb.

## Qlobal təhlükəsizliyə töhfə: maraqların uzlaşdırılması xətti

Bunun geosiyasi əhəmiyyəti ondan ibarət olub ki, Azərbaycan Türkiyə ilə sözdə deyil, konkret fayda verən layihələr əsasında əməkdaşlıq modelini yarada bilib. Bunun müasir tarixi mərhələ üçün nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyi məlumdur. Çünki ortada o qədər faktorlar var ki, müstəqil mövqeni saxlamaq üçün dərin düşünülmüş siyasi kurs yaratmaq lazım gəlir. Cənubi Qafqazda bu vəzifənin öhdəsindən hələlik yalnız Azərbaycan gələ bilir.

Digər tərəfdən, Azərbaycan Rusiya və Türkiyənin enerji sahəsindəki əməkdaşlığına həmişə müsbət yanaşıb. Bu əməkdaşlıq keçən əsrin 90-cı illərinin sonlarından mərhələli olaraq inkişaf edir. İki ölkə öncə “Mavi axın” layihəsini imzaladı (1997-ci il). 2017-ci ildən isə “Türk axını” qaz boru kəmərinin tikintisinə başlandı. Bu bağlılıqda Azərbaycan Prezidenti İlham Əliyev bəhs olunan müsahibəsində çox maraqlı bir məqamı vurğulayıb. Dövlət başçısı ifadə edib: “Hərçənd biz xatırlayırıq ki, xeyli illər əvvəl “Mavi axın” layihəsi gerçəkləşdirilmişdi. Bu barədə indi bir az unudublar. Amma axı, bu da Rusiyadan Türkiyəyə Qara dənizin dibi ilə qaz kəmərinin inşası layihəsi idi. Yəni, prinsipcə, bu il “Türk axını”nın dəniz fazasının açılmasında yeni heç nə yoxdur. Sadəcə, Rusiya ilə Türkiyənin yüksək səviyyədə qarşılıqlı siyasi fəaliyyəti bu layihənin reallaşmasına, yaxud da gerçəkləşməsini sürətləndirməyə imkan verib. Buna görə də biz Rusiya və Türkiyənin dostları kimi bu layihəni alqışladıq və həmin layihənin açılış mərasimində yüksək hökumət səviyyəsində iştirak etdik”.

Bu fikirlərdən aydın olur ki, Rusiya ilə Türkiyə arasında əməkdaşlıq yüksək siyasi iradə sayəsində inkişaf edə bilir. İki dövlətin liderləri bununla bağlı fəal mövqe nümayiş etdirirlər və maneələri dəf edərək daha sıx əməkdaşlığa nail olurlar. Bu prosesi diqqətlə izləyən Azərbaycan Rusiya və Türkiyənin əməkdaşlığına sevinir və dəstək verir. Rəsmi Bakı daha da irəli gedərək üç ölkəni əhatə edən layihələr irəli sürür. Ekspertlər üçün daha maraqlı cəhət ondan ibarətdir ki, Azərbaycan müstəqil enerji siyasəti yeritməklə geosiyasi müstəvidə Rusiya və Türkiyə üçün də əhəmiyyəti olan nəticələr əldə edir. Bu aspektdə “Cənub qaz dəhlizi” layihəsi xüsusi yer tutur. Bu layihənin reallaşmasına Rusiya rəhbərliyi də müsbət reaksiya verib. Həmin layihənin geosiyasi dəyərini nəzərdə tutaraq dövlət başçısı müsahibəsində vurğulayıb: “Bu, özündə dörd mühüm müstəqil layihəni birləşdirən layihədir... Bu gün bu layihənin dörd seqmentindən üçü artıq reallaşıb və mayda “Cənub qaz dəhlizi”nin rəsmi açılışından sonra iyunda TANAP layihəsinin açılışı oldu. Beləliklə, biz Türkiyə, daha sonra isə Avropa bazarlarına daha böyük həcmdə qaz nəql edəcəyik. Bu da bizim siyasətimizin davamıdır, çünki hələ 2007-ci ildə biz Bakıdan Türkiyənin Ərzurum şəhərinə qədər qaz kəməri açmışıq və Türkiyə bazarına qaz ixracatçısıyıq... Bu, bizə böyük qaz potensialımızı reallaşdırmaq imkanı verəcək...”.

Beləliklə, Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlıq formatının fərqli bir cəhəti vardır. Azərbaycanla Rusiya enerji ixrac edən və qonşu olan ölkələr kimi bir-birini tamamlayan enerji layihələri reallaşdırırlar. Bu mənada “Türk axını” ilə “Cənub qaz dəhlizi” rəqabət deyil, qarşılıqlı əlaqələndirmə yolu ilə Avrasiyanın yeni enerji xəritəsini yaradırlar. Dünya praktikasında yüksək qiymətləndirilməli olan haldır. Eyni zamanda, Rusiya və Azərbaycan enerji layihələrində ortaq kimi Türkiyəni görürlər.

Deməli, Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı regional və qlobal miqyasda geosiyasi və enerji-təhlükəsizlik sisteminin yaradılmasına ciddi töhfələr verir. Bu məqam dünya siyasi mühitinə pozitiv bir yön verir. Görünür, bu məqamın nəzəri analizi getdikcə daha böyük aktuallıq kəsb edəcək. Çünki çox qarışıq bir dövrdə böyük bir geosiyasi məkanda qalıcı ola biləcək və qarşılıqlı faydalı əməkdaşlıq nümunəsi olacaq əlaqələr formatından söhbət gedir.

Digər tərəfdən, Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlıq formatı Cənubi Qafqazda geosiyasi mühitin sabitləşməsinə töhfələr verə bilər. Şübhə etmirik ki, Ermənistan məhz bu pozitiv məqamı hiss edib, Azərbaycanla əməkdaşlıq edən Rusiyaya müəyyən iradlar bildirməyə çalışır. Eyni zamanda, Belarus və Qazaxıstana qarşı ittihamlar irəli sürür.

Yuxarıda ifadə edilən fikirlər təsdiq edir ki, Azərbaycan rəhbərliyi ciddi geosiyasi nəticələri olan, çoxlu sayda ölkənin səmərəli əməkdaşlığına və yaxınlaşmasına xidmət edən addımlar atır. Bu səbəbdəndir ki, İlham Əliyev müsahibəsində əminliklə vurğulayır: “Azərbaycanın, Rusiyanın və Türkiyənin bu istiqamətdə səylərini birləşdirməsi bizə nəinki planlarımızı tamamilə reallaşdırmağa, maraqlarımızı təmin etməyə imkan verəcək, həm də enerji ehtiyatlarımızın və nəqliyyatın inkişafı baxımından çox gözlənilən siyasət deməkdir”. Bizcə, məsələni çox dəqiq və dolğun ifadə edən fikirlərdir!

**Newtimes.az**

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Hacıqabulda vətəndaşları qəbul edib

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov yanvarın 17-də Hacıqabul şəhərindəki Heydər Əliyev Mərkəzində Şirvan, Kürdəmir, Saatlı, Sabirabad, Salyan, Hacıqabul, Neftçala şəhər və rayonlarından olan vətəndaşları qəbul edib.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbuldan öncə Arzu Rəhimov və Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla anıblar.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda vətəndaşlar əsasən, SHXÇDX-nə həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququnun verilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə əlaqədar müraciət ünvanlayıblar.

Qəbulda 25 vətəndaş iştirak edib.

Xidmət rəisi, general-leytenant Arzu Rəhimov hər bir müraciəti dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun olaraq qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

**AZƏRTAC**

# 2018-ci ildə dövlət büdcəsinin mədaxili 22,4 milyard manat, xərcləri isə 22,7 milyard manat olub

**Maliyyə Nazirliyi 2018-ci il üzrə dövlət büdcəsinin icrasına (operativ) dair məlumatı açıqlayıb.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ötən il üzrə dövlət büdcəsinin mədaxili 22 milyard 411,3 milyon manat, xərcləri 22 milyard 718,9 milyon manat olub.

Ötən il üzrə dövlət büdcəsinin mədaxili 22 milyard 149 milyon manat proqnoza qarşı 22 milyard 411,3 milyon manat və ya 101,2 faiz icra edilib.

Vergilər Nazirliyi xətti ilə daxilolmalar 7 milyard 417,6 milyon manat təşkil edib, proqnoz 100,5 faiz icra olunub. Həmin vəsaitin 67,1 faizi və ya 4 milyard 975,5 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşüb.

2018-ci il üzrə Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə 3 milyard 434,4 milyon manat vəsait daxil olub, proqnoz 107,6 faiz icra edilib.

Dövlət Neft Fondundan büdcəyə 10 milyard 959 milyon manat vəsait transfert olunub.

Keçən il dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən 466,4 milyon manat, sair daxilolmalardan 134,3 milyon manat vəsait dövlət büdcəsinə daxil olub. 2018-ci ilin dördüncü rübü üzrə dövlət büdcəsinin mədaxili 6 milyard 320,7 milyon manat icra olunub.

Ötən il dövlət büdcəsinin xərcləri 98,4 faiz və ya 22 milyard 718,4 milyon manat icra edilib.

2018-ci ilin oktyabr-dekabr ayları üzrə dövlət büdcəsinin xərcləri 7 milyard 52,9 milyon manat icra olunub.

Keçən il dövlət büdcəsi xərclərinin 11 milyard 549,8 milyon manatı və ya 50,8 faizi cari xərclərə, 8 milyard 941,9 milyon manatı və ya 39,4 faizi əsaslı xərclərə, 2 milyard 227,2 milyon manatı və ya 9,8 faizi dövlət borcuna, öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Dövlət büdcəsi xərclərinin 31,7 faizi və ya 7 milyard 196,6 milyon manatı sosial təyinatlı xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da 2017-ci illə müqayisədə 505,9 milyon manat və ya 7,6 faiz çoxdur.

Büdcənin kəsiri 307,6 milyon manat və ya təsdiq edilən yuxarı həddən 643,4 milyon manat az olub.

Kəsirin maliyyələşdirilməsi 222,6 milyon manatı dövlət istiqraz vərəqələrinin satışından və 101,2 milyon manatı özəlləşdirməsindən daxil olan vəsaitlər hesabına həyata keçirilib.

2018-ci ilin icmal büdcəsinin gəlirləri 31 milyard 34,7 milyon manat, xərcləri isə 26 milyard 334,4 milyon manat icra olunub. Keçən ilin icmal büdcədə 4 milyard 700,3 milyon manat büdcə artıqlığı (profisit) yaranıb.

**AZƏRTAC**

# Azərbaycan və İran hərbi əməkdaşlığı genişləndirir



**Yanvarın 17-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki gün ərzində işçi qruplarda aparılan danışıqların nəticələri müzakirə edilib və hərbi əməkdaşlığın digər istiqamətlərində münasibətlərin genişləndirilməsi ilə bağlı bir daha fikir mübadiləsi aparılıb.

Tərəflər icra edilən tədbirləri yüksək qiymətləndirərək bu cür qarşılıqlı səfərlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

**AZƏRTAC**

# Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əlaqələr inkişaf edir



**Yanvarın 17-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Rusiyanın İslam Əməkdaşlıq Təşkilatında (İƏT) daimi nümayəndəsi Ramazan Abdulatipovla görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Allahşükür Paşazadə Ramazan Abdulatipovun Rusiyanın İƏT-də daimi nümayəndəsi seçilməsinin önəmli hadisə olduğunu deyib. Bildirib ki, İƏT-də Azərbaycana olan münasibət, xüsusən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilən sənədlər məmnunluq hissi doğurur. "İslam Əməkdaşlıq Təşkilatı kimi böyük bir qurumda sizin kimi bir siyasətçinin olması vacibdir. Qafqaz Müsəlmanları İdarəsi olaraq sizə həmişə hər cür dəstək verməyə hazırıq", - deyə QMİ sədri qeyd edib.

Rusiyanın İƏT-də daimi nümayəndəsi Ramazan Abdulatipov Azərbaycana səfərindən və bu görüşdən məmnun olduğunu bildirib. O, Azərbaycanın İslam həmrəyliyinin möhkəmlənməsinə verdiyi töhfələri qeyd edib. Vurğulayıb ki, müqəddəs Qurani-Kərimdə də təkcə müsəlmanlar arasında deyil, bütün dinlərin nümayəndələri arasında əməkdaşlığa çağırış var.

R.Abdulatipov qeyd edib ki, Rusiya xristian ölkəsi olmasına baxmayaraq, burada 20 milyona yaxın müsəlman yaşayır. Rusiya İƏT-in müşahidəçisi seçilib. Bu təşkilatla Azərbaycan arasında yaxşı əməkdaşlıq mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyev İƏT-lə əməkdaşlığa böyük önəm verir və əlaqələrin möhkəmlənməsi üçün mühüm işlər görüb. Qafqaz Müsəlmanları İdarəsi də öz növbəsində, bu əməkdaşlığın inkişafı üçün töhfələrini verir.

Görüşdə Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov və Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr Işein də iştirak ediblər.

**AZƏRTAC**

# Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

**Yanvarın 17-də Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəlikdəki məsələlər barədə məlumat verib. Bildirilib ki, gündəliyə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda, Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə, "Azərbaycan Respublikasının "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda və Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri daxildir.

Ziyafət Əsgərov deyib ki, dəyişikliklər və əlavələr uyğunlaşma xarakterlidir. Belə ki, 2016-cı il sentyabrın 26-da keçirilən referendumla Konstitusiyamıza xeyli dəyişikliklər və əlavələr edildi. Onlardan biri də Konstitusiyanın 9-cu maddəsində edilən dəyişiklik idi. Həmin maddəyə müvafiq olaraq 2017-ci ilin dekabrında "Silahlı Qüvvələr haqqında" Qanun qəbul edildi, eyni zamanda, "Sərhəd Qoşunları haqqında" Qanunun əsasında yeni "Sərhəd mühafizə orqanları haqqında" Qanun qəbul olundu. Hazırda göstərilən dəyişikliklər hər iki qanuna uyğunlaşma xarakteri daşıyır.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə görə, sənədin 6.4-cü maddəsindən sonra "Bu Qanunun 6.4.1-ci maddəsində nəzərdə tutulmuş sənəd üzrə məlumatların elektron informasiya sistemindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənəd vətəndaşlardan tələb olunmur" məzmunlu qeyd əlavə ediləcək.

Deputatlar qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

**AZƏRTAC**

## *Səməd Seyidov:*

# Azərbaycan-Aİ əlaqələrində əldə edilən uğurlar Avropa Parlamentində ölkəmizi istəməyən qüvvələri ciddi narahat edir

**Azərbaycan ilə Avropa Parlamenti, Milli Məclislə Avropa Parlamenti, ümumiyyətlə, Azərbaycanla Avropa İttifaqı arasında konstruktiv əlaqələr qurulur. Ona görə də hesab edirəm ki, son illər Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıqda əldə edilən uğurlar Avropa Parlamentində Azərbaycanı istəməyən qüvvələri ciddi şəkildə narahat edir.**

Bu fikri Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Avropa Parlamentində Azərbaycana qarşı təşkil edilən dinləmələrə və qəbul edilən "qətnamə"yə dair AZƏRTAC-a açıqlamasında bildirib.

Səməd Seyidov qeyd edib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında hərtərəfli əməkdaşlığa dair sazişin hazırlanması istiqamətdə danışıqlar hazırda konstruktiv şəkildə davam edir. Avropa Parlamentinin və Avropa İttifaqının qəbul etdiyi sənədlərdə Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları çərçivəsində həll olunması birbaşa öz əksini tapıb. Yəqin ki, Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud olan həm iqtisadi, həm siyasi konstruktiv əlaqələr, yəni, münasibətlərin yüksələn xətlə inkişafı Azərbaycanı istəməyən qüvvələri ciddi narahat etməyə başlayıb və onlar Azərbaycana qarşı növbəti dəfə ikili standartlar mövqeyindən, reallıqdan uzaq çıxışlar ediblər. "Ancaq bu müzakirələrə baxarkən gördük ki, Avropa Parlamentinin deputatları tərəfindən aparılan müzakirələr bir istiqamətdə təşkil olunub: Azərbaycan-Avropa İttifaqı danışıqlarının dayandırılması, bu prosesə əngəl törədilməsi və məsələnin gündəmdən çıxarılması. Bu, Azərbaycana qarşı açıq-aşkar qeyri-obyektiv münasibətin göstəricisidir. Halbuki, bu gün Avropa Parlamentinin özünün müzakirəsini gözləyən xeyli problemləri var. Misal üçün, Fransada gedən proseslər. Bu, kifayətdir ki, Avropa Parlamenti Avropa İttifaqı daxilində olan problemləri müzakirə etsin. Ancaq görürük ki, bu dərəcədə ciddi bir məsələ kənara qoyulub və heç bir əsası olmayan, reallığı əks etdirməyən məsələlərlə bağlı müzakirələr təşkil edilir",- deyə Səməd Seyidov vurğulayıb.

Milli Məclisin deputatı qeyd edib ki, bu cür ikili standartlar Avropa Parlamentinin deyil, bu qurumun daxilində Azərbaycana qarşı işləyən qüvvələrin növbəti anti-Azərbaycan cəhdidir. Ancaq əminəm ki, bu cəhd heç bir nəticə verməyəcək. Azərbaycanla Avropa İttifaqı, o cümlədən Milli Məclis ilə Avropa Parlamenti arasındakı konstruktiv əməkdaşlıq davam etdiriləcək.

Bir neçə il bundan əvvəl də Azərbaycan ilə Avropa Parlamenti arasında gərgin bir dövrün yaşandığını xatırladan komitə sədri deyib: "Həmin dövrdə Avropa Parlamenti tərəfindən Azərbaycan ilə bağlı qərəzli qətnamə qəbul olundu. Azərbaycan da öz növbəsində, hətta Avronest Parlament Assambleyasından çıxdı. Bu proses 2017-ci ildə - Azərbaycan ilə Avropa İttifaqı arasında hərtərəfli əməkdaşlığa dair sazişin hazırlanmasına və bu istiqamətdə danışıqların aparılmasına başlanıldığı dövrdə gedirdi. Avropa Parlamentindəki anti-Azərbaycan qüvvələrin ölkəmizlə bağlı qəbul etdirdikləri qətnamələr real vəziyyəti əks etdirmədiyinə və ikili standartlara əsaslandığına görə onların heç bir nəticəsi olmadı. Hazırda Azərbaycan ilə Avropa İttifaqı arasında danışıqlar prosesinin yekunlaşma ərəfəsində bu cür qərəzli bir "qətnamə" qəbul olunur. Onlar Azərbaycanda hansısa aclıq aksiyasından danışırlar. Ancaq belə bir məsələ, ümumiyyətlə, yoxdur. Bu, onu göstərir ki, onlar hər hansısa bir məsələni öyrənməmiş, onun mahiyyətini dərk etməmiş bu cür qərəzli "qətnamələr" qəbul edirlər. Prezident İlham Əliyevin də öz çıxışlarında qeyd etdiyi kimi, son illərdə Ermənistanda ciddi saxtakarlıqla keçirilmiş prezident və parlament seçkilərinə müsbət rəy veriblər. Lakin sonradan erməni xalqı həmin rejimi tarixin zibilliyinə atdı. Bütün bunlar göstərir ki, Azərbaycan Avropa İttifaqı ilə konstruktiv danışıqlar aparmaq cəhdini ortaya qoyan kimi, ölkəmizi istəməyən qüvvələr bu cür ikili standartlara əsaslanan, qərəzli "qətnamələr" qəbul edirlər".

**AZƏRTAC**

# Azərbaycanın xarici işlər naziri "İnterfaks" agentliyinə müsahibə verib

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov "İnterfaks" agentliyinə məxsusi müsahibə verib.**

AZƏRTAC xəbər verir ki, nazir Elmar Məmmədyarov agentliyə müsahibəsində Azərbaycan ilə Rusiya arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını və regionlararası səviyyədə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinin münasibətlərimizin prioritetlərindən biri olduğunu bildirib. Bununla əlaqədar olaraq, ticari-iqtisadi, humanitar və digər sahələrdə Sankt-Peterburq ilə işlənib hazırlanmış və uğurla davam edən əməkdaşlıq formatlarından istifadə olunmasına xüsusi diqqət yetirilir.




Azərbaycanın xarici siyasət idarəsinin başçısı deyib: "2018-ci ilin dekabrında müvafiq hökumətlərarası komissiyanın ikinci iclası keçirilib. İclasda tərəfdaşlığımızın vəziyyəti və qarşılıqlı faydalı əsasda genişləndirilməsinin perspektivləri müzakirə edilib. Çox diqqətəlayiq haldır ki, 2020-ci ildə Azərbaycan dünyanın mədəni həyatında ən sanballı tədbirlərdən biri olan Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda "fəxri qonaq ölkə" statusunda iştirak edəcək. Əminəm ki, ölkəmizin Sankt-Peterburqdakı baş konsulluğu Azərbaycan ilə Rusiyanın Şimal paytaxtı arasında ikitərəfli əməkdaşlığın inkişafına bundan sonra da töhfə verəcək və bu istiqamətdə səylər göstərəcək".

Diplomat 2019-cu ildə Azərbaycanın xarici siyasətinin prioritetlərinə toxunaraq bildirib ki, ötən il olduğu kimi, 2019-cu ildə də ölkəmiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara əsaslanan müstəqil, çoxşaxəli, tarazlaşdırılmış və fəal xarici siyasət yeridəcək və beynəlxalq aləmdə onun mövqelərinin qorunub saxlanılmasına səy göstərəcək.

Elmar Məmmədyarov deyib: "2019-cu ildə xarici siyasətin prioritetləri, ilk növbədə, ölkəmizin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyümüzün beynəlxalq miqyasda tanınmış sərhədlər çərçivəsində bərpa olunması, habelə irimiqyaslı layihələrin reallaşdırılmasının davam etdirilməsi, bütün beynəlxalq aktorlarla qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi olacaq".

Nazir vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində onun ərazi bütövlüyü və suverenliyi əsasında nizamlanmalıdır.

Diplomat deyib: "Nizamlanmanın hüquqi bazasına müraciət edərkən xatırlatmaq lazımdır ki, onu, ilk növbədə, BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd qətnamə, digər beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in, İslam Əməkdaşlıq Təşkilatının, GUAM-ın, NATO-nun, Avropa Parlamentinin və s. qərarları, habelə ikitərəfli və çoxtərəfli formatlarda qəbul edilmiş birgə sənədlər təşkil edir. Təəssüf ki, uzun illər davam edən danışıqlar heç bir nəticə verməyib. Lakin Ermənistanda baş verən son hadisələr, habelə Düşənbədə və Sankt-Peterburqda MDB sammitləri müstəvisində Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan Respublikasının baş naziri arasında söhbətlər, eləcə də erməni həmkarımla üç görüşüm danışıqlar prosesinin irəlilədilməsi nöqteyi-nəzərindən müəyyən nikbinlik üçün əsas verir".

Nazirin sözlərinə görə, Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətləri başçılarının, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Milanda nazirlər səviyyəsində keçirilən görüşü çərçivəsində qəbul edilmiş 2018-ci il 6 dekabr tarixli birgə bəyanatında münaqişənin sülh yolu ilə ədalətli və davamlı tənzimlənməsi üzrə danışıqları davam etdirməyə razılığın əldə olunması qeyd edilib. Bu isə o deməkdir ki, danışıqların formatı dəyişməyib. Sənəddə, həmçinin Düşənbədə iki dövlətin rəhbərləri səviyyəsində əldə olunmuş razılaşmaya riayət edilməsinə və hər iki ölkənin əhalisinin sülhə hazırlanması üçün konkret addımların atılmasına çağırış əksini tapıb. Bundan əlavə, birgə bəyanatda yaxın gələcəkdə Azərbaycan və Ermənistan rəhbərlikləri səviyyəsində intensiv danışıqların aparılmasının zəruriliyi barədə fikir ifadə olunub.

E. Məmmədyarov deyib: "Münaqişənin nizamlanmasında irəliləyişin əldə olunması bütün regionda sülh, təhlükəsizlik və sabitliyə şərait yaratmaqla, ilk növbədə, Ermənistanın özündə iqtisadi inkişafa imkanlar açacaq. Ölkəmiz digər etnik qrupların nümayəndələri olan vətəndaşlarının təhlükəsizliyini təmin etdiyi kimi, özünün beynəlxalq öhdəliklərinə uyğun olaraq Dağlıq Qarabağın erməni mənşəli vətəndaşlarına münasibətdə də bunu etmək və onlara Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində yüksək səviyyədə özünüidarəetmə hüququ verməyə hazırdır".

Nazir vurğulayıb ki, Azərbaycanı narahat edən problemlərə və beynəlxalq gündəliyin aktual məsələlərinə dair ölkəmizin mövqeyi BMT Baş Məclisinin 73-cü sessiyası çərçivəsində keçirilən bir sıra tədbirlərin gedişində böyük anlayışla qarşılanıb və dəstəklənib. Məsələn, BMT-nin Baş Məclisi Azərbaycanın təklif etdiyi "İtkin düşmüş şəxslər" adlı qətnaməni dekabrın 17-də qəbul edib. Sənəddə beynəlxalq birliyin diqqəti beynəlxalq humanitar hüququn müddəalarına hörmət və onlara riayət olunması, silahlı münaqişələr şəraitində insanların itkin düşməsi hallarının qarşısının alınması, itkin düşmüş şəxslərin axtarışı üzrə bütün zəruri tədbirlərin görülməsi, o cümlədən beynəlxalq öhdəliklərə müvafiq olaraq onların taleyinin müəyyən edilməsi üçün əməkdaşlıq üzərində cəmləşdirilir.

Aprelin 3-5-də Bakıda Qoşulmama Hərəkatının üzvü olan ölkələrin nazirlərinin konfransı keçirilib. Konfransın nəticələrinə əsasən qəbul edilmiş yekun sənədində və Bakı Bəyannaməsində Azərbaycanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair mövqeyinə birgə dəstək ifadə olunub. Avropa Parlamenti dekabrın 12-də "Aİ-nin xarici siyasət və təhlükəsizlik sahəsində ümumi xarici siyasətinin reallaşması haqqında" qətnamə qəbul edib. Qətnamə mövcud münaqişələrin ərazi bütövlüyü, suverenlik və beynəlxalq miqyasda tanınmış sərhədlərin toxunulmazlığı prinsipləri əsasında tənzimlənməsini təsdiq edib.

Nazir beynəlxalq birliyin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə birmənalı dəstəyinin artdığını xüsusi vurğulayaraq deyib: "Bizim ardıcıl səylərimiz nəticəsində "beynəlxalq miqyasda tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünün dəstəklənməsi" formulundan diplomatiya leksikonunda geniş istifadə olunmağa başlanıb".

Azərbaycan XİN-in başçısı qeyd edib ki, beş Xəzəryanı ölkənin liderləri tərəfindən 2018-ci ilin avqustunda imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya dövlətlərin əməkdaşlıq etməsi üçün unikal imkanlar açıb. Nazir vurğulayıb: "Konvensiyanın imzalanması sözün həqiqi mənasında beş sahilyanı dövlətin xoş məramını nümayiş etdirən tarixi hadisə olub. Ölkəmiz üçün bu sənədin əsas əhəmiyyəti bundan ibarətdir ki, o, dənizin zəngin təbii ehtiyatlarından istifadə olunması üçün sahilyanı dövlətlərin suveren və müstəsna hüquqlarını müəyyən edir. Beləliklə, Konvensiya neft-qaz sənayesi sahəsində, habelə dənizdə digər təsərrüfat-iqtisadi fəaliyyətin həyata keçirilməsi sahəsində müxtəlif layihələrin reallaşdırılmasının ardıcıllığını və təhlükəsizliyini təmin edir. O, dəniz gəmiçiliyinin sərbəstliyi və təhlükəsizliyi üçün şərait yaradır. Bu da Xəzər dənizində ticarətin və ölkələrimizin iqtisadiyyatlarının inkişafında mühüm rol oynayır. Nazir əlavə edib ki, tarixən Xəzərdə iri layihələrin həyata keçirilməsində cığıraçan ölkə olan Azərbaycan sahilyanı dövlətlərlə əməkdaşlığı bundan sonra da genişləndirməyi planlaşdırır.

E. Məmmədyarov belə bir faktı diqqətəlayiq adlandırıb ki, ölkəmiz 2019-2022-ci illər ərzində Qoşulmama Hərəkatına başçılıq etmək şərəfinə çox qısa müddətdə layiq görülüb. Diplomat deyib: "Qoşulmama Hərəkatının üzvü olan ölkələrin nazirlərinin ötən ilin aprelində Bakıda keçirilən konfransının yekun sənədində bizim xarici siyasət sahəsində bir sıra təşəbbüslərimizə dəstək ifadə olunub, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinə müvafiq olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində nizamlanmasının zəruriliyi vurğulanıb. Ölkəmizin Qoşulmama Hərəkatında sədrliyi bizim mövqeyimizin dünyaya çatdırılmasına əlavə imkanlar yaradacaq. Təşkilatın 120 üzvü BMT-nin üzvü olan dövlətlərin üçdəiki hissəsini təşkil edir ki, bu da bu və ya digər qərarın qəbul edilməsinə təsir göstərməyə imkan verir. Bununla belə, Hərəkatda sədrlik ölkəmiz tərəfindən irəli sürülən yeni təşəbbüslərin önə çəkilməsi üçün rahat format ola bilər, onların reallaşdırılması isə dünyada Azərbaycanın siyasi nüfuzunun artmasının rəhni olacaq".

Elmar Məmmədyarov Rusiya agentliyinə müsahibəsində ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı mövzusuna da toxunub. Azərbaycanın Avropa İttifaqı ilə bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərini inkişaf etdirmək istədiyini qeyd edən nazir deyib: "Tərəfdaşlığımızın sonuncu ili Aİ ilə əməkdaşlıq gündəliyinin irəli çəkilməsi baxımından çox məhsuldar oldu. Odur ki, mən diqqəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının sədri Donald Tuskun iştirakı ilə ötən il iyulun 11-də Brüsseldə paraflanan və yekun olaraq oktyabrın 15-də "Şərq Tərəfdaşlığı" ölkələri nazirlərinin Lüksemburq görüşü çərçivəsində təsdiq edilən Azərbaycan və Aİ arasında "Tərəfdaşlıq prioritetləri" sənədi üzərində cəmləşdirmək istəyirəm.

Aİ və Azərbaycan arasında yeni hərtərəfli sazişə dair danışıqlar prosesinin davam etdiyini diqqətə çatdıran diplomat deyib: "Təbii ki, buna müəyyən vaxt lazımdır, çünki bizə də, Aİ-dən olan tərəfdaşlarımıza da ikitərəfli münasibətlərin hüquqi əsaslarını təşkil edəcək, Azərbaycan ilə Aİ arasında qarşılıqlı tərəfdaşlığı müxtəlif istiqamətlərdə uzun müddətə möhkəmləndirəcək ciddi və keyfiyyətli saziş lazımdır. Viza rejiminin sadələşdirilməsi haqqında sazişə gəlincə isə xatırlatmaq istərdim ki, bu saziş artıq bir neçə ildir qüvvədədir. Onun məntiqi davamı Aİ ilə viza rejiminin tam ləğv edilməsi ola bilər. Yəni söhbət viza rejiminin liberallaşdırılmasından gedir. Lakin bu, müəyyən vaxt tələb edir".

**AZƏRTAC**

# Mülki Prosessual Məcəlləyə edilmiş dəyişikliklərin tətbiqi Bakı Apellyasiya Məhkəməsində müzakirə olunub

**Bakı Apellyasiya Məhkəməsində onun yurisdiksiyasına aid məhkəmələrin hakimlərinin və aparat işçilərinin iştirakı ilə Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə qəbul olunmuş 2018-ci il 28 dekabr tarixli Qanunla Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə edilən dəyişikliklər müzakirə olunub.**



AZƏRTAC xəbər verir ki, məhkəmənin sədri İman Nağıyev tədbiri açaraq Mülki Prosessual Məcəlləyə edilmiş dəyişikliklərin ölkəmizdə məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən köklü islahatların tərkib hissəsi olduğunu diqqətə çatdırıb. O, Azərbaycan ədliyyəsinin davamlı inkişafı çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması, ədalət mühakiməsi prosesinin rəqəmsallaşması sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildiyini vurğulayıb.

Zamanın bu çağırışlarına cavab olaraq, 2014-cü ilin fevralında Azərbaycan Prezidentinin Sərəncamı ilə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron məhkəmə" informasiya sistemi yaradılıb. Bakı Apellyasiya Məhkəməsinin sədri rəqəmsal texnologiyaların tətbiqinin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, məhkəmə icraatının elektron qaydada aparılması nəticəsində operativliyin və şəffaflığın təmin olunmasına, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasına və genişləndirilməsinə xidmət etdiyini bildirib.

Belə ki, qanunvericiliyə əlavə olunan "Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada aparılması"na dair 10-1-ci maddə ilə elektron məhkəmə sisteminin işləməsi ilə vətəndaşların məhkəməyə gəlmədən, elektron formada müraciət edərək, proses barədə məlumatı elektron qaydada dərhal əldə etməsi, məhkəmə proseslərinin audio-video vasitələrlə qeydə alınması, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanının yaranması ilə proses iştirakçıları məhkəmənin gedişi, qərarlar və onların icra vəziyyətini əks etdirən elektron "şəxsi kabinet"lə təmin olunmaları imperativ xarakter alıb. Həmçinin məhkəmə iclası barədə bildirişlər iş təyin olunan anda hakimin elektron imzası ilə təsdiqlənir və dərhal tərəflərin e-mail ünvanlarına və ya mobil telefonlarına SMS formasında göndərilir.

Bildirilib ki, eyni zamanda, Qanuna edilən yeni dəyişikliklə məhkəmələrdə təyin olunan işlərin siyahısı və yekun məhkəmə aktları bazasının formalaşdırılaraq portalda yerləşdirilməsi, məhkəmə rüsumlarının elektron qaydada ödənilməsi nəzərdə tutulur. Bu da öz növbəsində məhkəmələrdə süründürməçilik və digər pozuntuların azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına şərait yaradıb.

Hazırkı Qanunla Mülki Prosessual Məcəlləyə "Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat"a dair 23-1-ci fəslin əlavə edilməsi də məhkəmələrdə işlərə baxılmasının daha keyfiyyətli olmasına, vətəndaşların gözlədikləri məhkəmə qərarlarını daha tez əldə etmələrinə, özbaşınalığın və süründürməçiliyin qarşısının alınmasına xidmət edəcək.

Vurğulanıb ki, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə Azərbaycan Prezidentinin bilavasitə tapşırıqları ilə həyata keçirilən bütün tədbirlərin əsasında vətəndaşların hüquqlarının səmərəli məhkəmə müdafiəsinin təşkili dayanır. Bu isə ilk növbədə, məhkəməyə çatımlılıq imkanının yaxşılaşdırılmasını, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasını, insanlara layiqli xidmət göstərilməsini, etik davranış qaydalarına dönmədən əməl olunmasını, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini şərtləndirir.

Təlimçi qismində iştirak edən Ali Məhkəmənin hakimi Əsəd Mirzəliyev yeni Qanunla Mülki Prosessual Məcəllənin məhkəmə bildirişləri ilə bağlı 139-cu maddəsinə və məhkəmə qətnaməsindən çıxarışın verilməsinə dair 214-cü maddəsinə edilmiş əlavə və dəyişikliklər barədə ətraflı məlumat verib.

"Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə işçi qrupun rəhbəri, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Ramin Qurbanov bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu iqtisadi islahatlar nəticəsində Dünya Bankının "Doing Business 2018" hesabatına əsasən, Azərbaycan 2017-ci illə müqayisədə 2018-ci ildə 8 pillə irəliləyərək 190 ölkə üzrə aparılan reytinq dəyərləndirməsində 57-ci yerə yüksəlib və Avropa, Mərkəzi Asiya regionunda ən islahatçı üç ölkədən biri kimi qiymətləndirilib. Son illər ərzində davamlı olaraq həyata keçirilən iqtisadi islahatlar, "Doing Business" hesabatına uyğun olaraq, "Müqavilələrin İcrası" indikatoru üzrə əhəmiyyətli dəyişikliklərin və mühüm irəliləyişlərin də əldə olunmasına yol açıb. O, Mülki Prosessual Məcəlləyə edilmiş dəyişikliklərin "Elektron məhkəmə" informasiya sistemində tətbiq olunduğunu bildirib.

R.Qurbanov, həmçinin "Elektron məhkəmə" informasiya sistemi barədə təqdimatla çıxış edərək sistemin imkanları, vahid məhkəmə portalı, vətəndaşların şəxsi kabineti, dövlət rüsumlarının elektron ödəniş sistemi, elektron icra sistemi və digər məsələlər barədə müfəssəl məlumat verib.

Bakı Apellyasiya Məhkəməsinin hakimləri Abiddin Hüseynov və Rəfael Eyvazov tərəfindən yeni qanunvericiliyin ayrı-ayrı müddəaları barədə çıxışlar edilib, təhlillər aparılıb, təcrübədə qarşıya çıxacaq məsələlərin həlli yolları müzakirə olunub, hakimləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

**AZƏRTAC**

*Yeni nəşr*

# CİNAYƏT QURBANLARININ HÜQUQİ VƏZİYYƏTİ HAQQINDA DƏYƏRLİ ELMİ ƏSƏR

**Bir müddət əvvəl "Hərbi Nəşriyyat"da görkəmli alim, Əməkdar hüquqşünas, Azərbaycan Respublikasının Hərbi prokuroru, hüquq üzrə fəlsəfə doktoru Xanlar Rüstəm oğlu Vəliyevin "Cinayət mühakimə icraatında zərərçəkmiş şəxs" adlı monoqrafiyası dərc edilmiş və oxucuların ixtiyarına verilmişdir. Əsər cinayət-prosessual hüququn son dərəcə mühüm və maraqlı institutlarından birinə - cinayət mühakimə icraatında zərər çəkmiş şəxsin hüquqi statusuna həsr edilmişdir.**

Müstəqilliyinin 30 illiyinin astanasında olan Azərbaycan Respublikasında, cinayət-prosessual hüquq elmi sahəsində yazılmış əsərlər — monoqrafiyalar və dissertasiyalar tədqiqatlarının mövzularını təhlil etdikdə müəyyən olur ki, bu illər ərzində cinayətdən zərər çəkmiş şəxslərin hüquqi statusuna həsr edilmiş hər hansı bir müstəqil əsər ərsəyə gətirilməmiş, qeyd olunan dövrdə tədqiqatçıların əsas diqqəti, bir qayda olaraq, cinayət təqibinə məruz qalan şəxslərin prosessual vəziyyətinin araşdırılmasına və cinayət-prosessual hüququn digər problemlərinə yönəlmişdir. Bununla belə, unutmaq olmaz ki, cinayət qurbanlarının hüquqlarının və qanuni mənafelərinin müdafiəsi cinayət təqibinə məruz qalan şəxslərin hüquqlarının müdafiəsindən heç də az əhəmiyyətli deyildir. Son illərin rəsmi statistikasından görünür ki, Azərbaycan Respublikasında 2010-cu ildə 23010, 2011-ci ildə 24263, 2012-ci ildə 21897, 2013-cü ildə 22381, 2014-cü ildə 24607, 2015-ci ildə 26916, 2016-cı ildə 26611, 2017-ci ildə isə 26113 cinayət qeydə alınmışdır. Şübhəsiz, Cinayət Məcəlləsinin Xüsusi hissəsində bir sıra elə maddələr vardır ki, həmin maddələrdə nəzərdə tutulmuş cinayətlərin qurbanı qismində konkret şəxslər çıxış etmirlər, lakin belə cinayətlərin sayı digər cinayətlərlə müqayisədə azdır, həmçinin nəzərə almaq lazımdır ki, cinayətlərin ümumi statistikası 1 cinayət = 1 zərər çəkmiş şəxs formulu əsasında da şərh edilə bilməz, təcrübədə tez-tez bir cinayətdən eyni zamanda bir neçə şəxsin zərər çəkməsi hallarına rast gəlinir. Bütün qeyd edilənlər əsasında belə nəticəyə gəlinir ki, ölkədə hər il təqribən 20000 nəfərə yaxın şəxs cinayətdən zərər çəkir. Bu anlamda, "Cinayət mühakimə icraatında zərərçəkmiş şəxs" adlı monoqrafiyanın hazırlanması insanların hüquqlarının və qanuni mənafelərinin daha səmərəli müdafiə, mühafizə, təmsil və realizə edilməsi üçün elmi baza yaradır. Bu amil, monoqrafik tədqiqat üçün seçilmiş mövzunun aktuallığına dəlalət edən bütün digər hallarla yanaşı, eyni zamanda "Cinayət mühakimə icraatında zərərçəkmiş şəxs" kitabının ərsəyə gəlməsini ölkə miqyasında ilk dəfə baş verən vacib hadisə kimi dəyərləndirməyə imkan verir.

Nəzərə almaq lazımdır ki, 12 noyabr 1995-ci il tarixdə, ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilmiş insan və vətəndaşın hüquq və azadlıqlarının prioritetliyi və dövlət tərəfindən təmin edilməsi prinsipi dövlətin üzərinə həyatın və dövlət orqanlarının fəaliyyətinin bütün sahələrində, o cümlədən cinayət mühakimə icraatında iştirak edən bütün şəxslərin hüquqlarının təminatı üzrə pozitiv öhdəliklər qoyur. Konstitusiyanın 68-ci maddəsi cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərərçəkmiş şəxsin hüquqlarının qanunla qorunduğunu bəyan edir, zərərçəkmiş şəxslərə ədalət mühakiməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ verir. Bu konstitusion müddəa Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixdə qəbul edilmiş, 1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmiş Cinayət-Prosessual Məcəlləsinin 12-ci, 19-cu, 87-ci, 88-ci, 119-123-cü və bir sıra digər maddələrində daha təfsilatı ilə təsbit olunmuşdur. Həmçinin qeyd etmək yerinə düşər ki, XX əsrin 70-ci illərindən etibarən müasir dövrə qədər Avropa Şurasının Nazirlər Kabineti tərəfindən cinayət qurbanlarının hüquqlarının təminatı məsələlərinə həsr edilmiş çoxsaylı tövsiyələr qəbul edilmişdir. Onların sırasında "Cinayət qurbanlarına kompensasiya verilməsi haqqında" 28 sentyabr 1977-ci il tarixli, "Cinayət hüququ və cinayət prosesi çərçivəsində zərərçəkmiş şəxsin vəziyyəti haqqında" 28 iyun 1985-ci il tarixli, "Cinayət qurbanlarına yardım və viktimizasiyanın qarşısının alınması haqqında" 17 sentyabr 1987-ci il tarixli, "Dəyişən Avropada cinayətkarlıqla mübarizə siyasəti haqqında" 5 sentyabr 1996-cı il tarixli, "Cinsi istismar məqsədləri ilə insan alverinə qarşı mübarizə haqqında" 19 may 2000-ci il tarixli, "Qadınları zorakılıqdan qorumaq haqqında" 30 aprel 2002-ci il tarixli, "Cinayət qurbanlarına yardım haqqında" 14 iyun 2006-cı il tarixli tövsiyələri göstərmək olar. Bundan başqa, məlum olduğu kimi, Azərbaycan Respublikası 17 mart 2000-ci il tarixdə "Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında" 1983-cü il noyabrın 24-də Strasburq şəhərində imzalanmış Avropa Konvensiyasına da qoşulmuşdur. Bütün bunlar Avropa Şurasının tamhüquqlu üzvü kimi Azərbaycan Respublikası qarşısında cinayət qurbanlarına münasibətin yeni meyarlar və yeni standartlar əsasında göstərilməsi öhdəlikləri qoymuşdur. Odur ki, h.ü.f.d. X.R.Vəliyev tərəfindən cinayətdən zərərçəkmiş şəxsin hüquqi statusu haqqında yazılmış elmi əsər olduqca mühüm və aktual bir problemə həsr edilmişdir.

Sözügedən kitab ön söz, giriş, altı fəsil, nəticə, ədəbiyyat siyahısı, əlavələr və annotasiyalar kimi hissələrdən ibarətdir.

"Giriş" hissəsində müəllif, tədqiqat üçün seçilmiş mövzunun aktuallığına dair arqumentlər sadalamış, mövzunun elmi işlənmə dərəcəsi haqqında müfəssəl məlumat vermiş, monoqrafiyanın yazılması zamanı qarşıya qoyulmuş məqsəd və vəzifələr qeyd olunmuşdur.

Kitabın I Fəsli cinayətdən zərərçəkmiş şəxslərin hüquq və qanuni maraqlarının konstitusion-hüquqi və beynəlxalq-hüquqi təminatlarına həsr edilmişdir.

Monoqrafiyanın "Cinayətdən zərərçəkmiş şəxslərin cinayət-prosessual statusu" adlanan II Fəslində zərərçəkmiş şəxsin prosessual statusuna dair qanunvericiliyin genezisi və müasir qanunvericiliyə görə anlayışı, zərərçəkmiş şəxsin ittiham funksiyasının həyata keçirilməsində iştirakı və onun subsidiar ittiham hüququ, zərərçəkmiş şəxsin prosessual hüquqları və onların müdafiə edilməsinin xüsusiyyətləri, zərərçəkmiş şəxsin prosessual vəzifələri, bu subyektin təhlükəsizliyinin təmin edilməsi, hüquqi məsuliyyəti, zərərçəkmiş şəxslə barışıq əldə edilməsi və mediasiya institutu, zərərçəkmiş şəxsə kompensasiya verilməsi məsələləri, o cümlədən bəzi xarici dövlətlərdə zərərçəkmiş şəxsin hüquqi statusu əhatəli, geniş və keyfiyyətli təhlil olunmuşdur.

Əsərin "Cinayət mühakimə icraatında zərərçəkmiş şəxslərin hüquq və qanuni maraqlarının təmsil və müdafiə edilməsi məsələləri" adlı III Fəslində cinayət prosesində zərərçəkmiş şəxsin qanuni nümayəndəsinin, nümayəndəsinin və hüquqi varisinin iştirakının xüsusiyyətləri araşdırılmışdır.

Kitabın IV Fəsli sübutlar sistemində zərərçəkmiş şəxsin ifadəsinə həsr edilmişdir. Bu fəsildə müəllif zərərçəkmiş şəxsin ifadəsinin sübutlar sistemində yerinə nəzər salmış, zərərçəkmiş şəxsin dindirilməsi, onun ifadəsinin yoxlanılması və qiymətləndirilməsi xüsusiyyətlərini işıqlandırmış, o cümlədən zərərçəkmiş şəxsin ifadələrinin elan edilməsi məsələlərinə aydınlıq gətirmişdir.

V Fəsildə cinayətdən zərər çəkmiş şəxsin şəxsiyyəti, davranışı və digər xüsusiyyətləri sübutetmə predmetinin tərkib elementi kimi nəzərdən keçirilmişdir. Müəllif bu fəsildə sübutetmə predmetinin anlayışına və tərkib elementlərinə toxunmuş, zərərçəkmiş şəxslə bağlı yüngülləşdirici halları, zərərçəkmiş şəxslə bağlı ağırlaşdırıcı halları, həmçinin, zərərçəkmiş şəxslə bağlı tövsifedici halları sübutetmə predmetinin tərkib elementi kimi müfəssəl şəkildə təhlil etmişdir.

Monoqrafik tədqiqatın sonuncu fəslində müəllif, cinayət mühakimə icraatının ayrı-ayrı mərhələlərində zərərçəkmiş şəxsin iştirakının xüsusiyyətlərini şərh etmişdir. Həmin fəsildə zərərçəkmiş şəxsin cinayət işinin başlanması, ibtidai araşdırma, birinci instansiya məhkəməsində icraat mərhələlərində, o cümlədən yuxarı instansiya məhkəmələrində icraatda iştirakının xüsusiyyətləri işıqlandırılmışdır.

"Nəticə" hissəsində tədqiqat zamanı aparılmış ən əhəmiyyətli nəzəri ümumiləşdirmələr, təcrübənin səmərələşdirilməsi üçün təklif edilmiş tövsiyələr və qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edə biləcək normativ təkliflər lakonik və sistemli şəkildə təqdim edilmişdir.

Kitabın sonuna təcrübi işçilər arasında keçirilmiş rəy sorğusunun məzmunu və ümumiləşdirilmiş nəticələri, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun h.ü.f.d. X.R.Vəliyev tərəfindən hazırlanmış nəzəri layihəsi, həmçinin Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Cinayət mühakimə icraatında zərərçəkmiş şəxsin iştirakını tənzimləyən qanunların tətbiqi haqqında" 27 dekabr 1996-cı il tarixli, 5 saylı Qərarının və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 12.2, 87.2 və 106.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 15 aprel 2014-cü il tarixli Qərarının tam mətnləri əlavə edilmişdir.

Monoqrafiyanın daxili quruluşu məntiqi ardıcıllığı və çoxaspektliliyi ilə xarakterizə olunur. Əsərin maraqlı bir cəhəti ondan ibarətdir ki, cinayət-prosessual hüquqla müxtəlif hüquq elmlərinin - cinayət hüququ, konstitusiya hüququ, beynəlxalq hüquq, kriminalistika, viktimologiya, kriminologiya və s. inteqrasiyası, eləcə də problemlərə multidissiplinar yanaşma (hüquqi məsələlərin gerontologiya, psixologiya, sosiologiya və s. digər elmlər aspektindən işıqlandırılması) onun bütün məzmunu boyunca hiss edilir.

Kitabda cinayət prosesinin iştirakçısı kimi zərərçəkmiş şəxsin hüquqi vəziyyətinin cinayət-prosessual hüququn bir sıra digər institutları ilə korrelyasiyası kontekstindən izah edilməsi üsulunun seçilməsi isə tədqiqatın məzmununu daha da zənginləşdirmişdir. Belə ki, əsərdə məntiqi vurğu zərərçəkmiş şəxsin hüquq və vəzifələri üzərində qoyulmuş olsa da, onun məzmunundan "cinayət prosesində nümayəndəlik", "cinayət-prosessual sübutlar", "sübutetmə predmeti", "cinayət-prosessual mərhələlər", "əməlin tövsifi", "cinayət məsuliyyətinin diferensiasiyası" və s. bu kimi hüquq institutları barədə də geniş və elmi əsaslandırılmış məlumatlar almaq mümkündür.

Əsərdə problemə retrospektiv (institutun inkişaf tarixi) və perspektiv (institutun gələcək inkişaf istiqamətləri) baxış arasında, komparativ analiz (xarici hüququn müqayisəli şəkildə öyrənilməsi) və milli hüququn təhlili arasında, eləcə də doktrinal (nəzəri yanaşmalarla iş) və praktik (konkret təcrübi materiallarla iş) ümumiləşdirmələr arasında ağlabatan balans prinsipinə tam riayət edilmişdir.

Hesab edirik ki, monoqrafiyanın milli hüququn gələcək inkişafı üçün potensial rolu xüsusi vurğulanmalıdır. Məsələn, məlum olduğu kimi, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumu sonuncu dəfə zərərçəkmiş şəxsin cinayət-prosessual statusu haqqında öz hüquqi mövqeyini "Cinayət mühakimə icraatında zərərçəkmiş şəxsin iştirakını tənzimləyən qanunların tətbiqi haqqında" 27 dekabr 1996-cı il tarixli, 5 saylı Qərarında nümayiş etdirmişdir. Şübhəsiz, bu gün həmin qərar öz aktuallığını itirməklə, nəinki məhkəmələr üçün tövsiyə rolunu oynaya bilmir, hətta bəzi hallarda cari qanunvericiliklə bir araya sığmayan izahlar nəzərdə tutur. Bu anlamda, oxucuların ixtiyarına verilmiş yeni monoqrafiyada zərərçəkmiş şəxsin hüquqi vəziyyəti ilə bağlı həm yeni hüquq normalarının şərh edilməsi, həm də müasir məhkəmə təcrübəsindəki real vəziyyətinin bəzən ümumiləşdirilməklə (sintez), bəzən isə seçilmiş ayrı-ayrı məhkəmə qərarlarının qısa xülasəsinin verilməsi (analiz) yolu ilə təqdim edilməsi təcrübi aspektdən qeyd olunan boşluğun doldurulması üçün kifayət qədər əhəmiyyətlidir. İstisna edilmir ki, kitabda aparılmış təhlil və ümumiləşdirmələrin nəticələrindən Azərbaycan Respublikasının Ali Məhkə-




məsinin Plenumu tərəfindən gələcəkdə qəbul ediləcək "Cinayət mühakimə icraatında zərərçəkmiş şəxsin hüquqlarının və qanuni mənafelərinin təmin edilməsinə dair məhkəmə təcrübəsi haqqında" yeni Qərarın qəbul edilməsi zamanı istifadə olunacaqdır. Ən azından biz, bunu tövsiyə və arzu edirik.

Monoqrafiyanın aktuallığı təkcə bu günlə məhdudlaşmayaraq, əksinə daha çox perspektivə yönəlmiş olması onun öz məzmununda gələcəkdə qəbul ediləcək bir sıra yeni qanunlarda istifadə edilə biləcək müddəaların və prinsiplərin əks etdirməsi ilə də öz təsdiqini tapır. Məsələn, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" 14 iyul 2000-ci il tarixli Qanununun 2-ci maddəsinə görə, CPM-in zərər çəkmiş şəxsə kompensasiya verilməsi ilə bağlı 87.6.18-ci maddəsinin və XX fəslinin müddəaları müvafiq qanun qəbul edildikdən sonra qüvvəyə minir. Göründüyü kimi, 14 iyul 2000-ci il tarixli Qanun, faktiki olaraq, gələcəkdə "Cinayətdən zərər çəkmiş şəxslərə kompensasiyanın verilməsi haqqında" Qanunun qəbul ediləcəyini bəyan edir. Bu mənada, rəyə təqdim edilmiş monoqrafiyanın cinayət qurbanlarına kompensasiya verilməsi institutunun ümumi hüquq nəzəriyyəsi (dövlətin hüquq-mühafizə və sosial funksiyaları) baxımından izahını, beynəlxalq-hüquqi prinsiplərinin kommentariyasını, xarici dövlətlərin bu sahədəki təcrübəsinin təhlilini, eləcə də bu instituta dair milli hüquq normalarının inkişaf istiqamətlərini müəyyən edən ideyaları əks etdirən hissələrini gələcəkdə qəbul ediləcək qanun üçün konseptual əsas qismində qiymətləndirmək olar.

Başqa bir misal kimi, müəllifin Mediasiya institutunun hüquqi tənzimlənmə perspektivləri haqqındakı fikirlərini göstərmək olar. O, qeyd edir ki, Azərbaycan Respublikasının cinayət prosesində Mediasiya institutunun daha geniş tətbiqi və inkişafı üçün, ilk növbədə, hüquqi mübahisələrin həlli üsulu kimi mediasiya fəaliyyətinin hüquqi əsaslarını müəyyən edən sahəvi qanun, məsələn, Azərbaycan Respublikasının "Mediasiya haqqında", yaxud "Mediasiya fəaliyyəti haqqında" Qanunu, daha sonra isə cinayət prosesində mediator kimi iştirak edən şəxslərin prosessual statusunu müəyyən edəcək yeni cinayət-prosessual müddəalar qəbul edilməlidir. Xüsusi vurğulanmalıdır ki, ümumiyyətlə, əsərdə qanunvericilik fəaliyyətinin gələcək istiqamətlərini müəyyən edən belə ideya və yanaşmalara çox rast gəlinir.

Əminliklə demək olar ki, bu elmi əsərdə zərərçəkmiş şəxsin cinayət-prosessual hüquqi statusu müfəssəl şəkildə tədqiq edilmişdir. Bütün göstərilənləri ümumiləşdirərək qeyd etmək istərdik ki, hüquq sahəsində əlamətdar hadisə hesab edilən "Cinayət mühakimə icraatında zərər çəkmiş şəxs" adlı bu əsərin ərsəyə gəlməsi müəllifin növbəti elmi uğuru olmaqla yanaşı, həm də hüquq elminə və məhkəmə-istintaq təcrübəsinə dəyərli töhfəsidir. Kitabdakı elmi və təcrübi əhəmiyyətli izah və yanaşmaların yüksək keyfiyyətini, əldə edilmiş nəticələrin zəngin metodik, nəzəri, normativ və empirik bazaya əsaslanmasını, məzmunun səlis və anlaşılan dildə təqdim edilməsini nəzərə alaraq, oxuculara bu kitabdan tədris, təlim və elmi tədqiqat prosesində, o cümlədən bilavasitə praktiki fəaliyyətdə geniş istifadəni tövsiyə edirik.

**Fərdin Yaşar oğlu XƏLİLOV,**
**hüquq üzrə fəlsəfə doktoru.**

# Əhalinin siyahıyaalınmasına hazırlıq işləri davam edir

**Azərbaycan Respublikasında hər on ildən bir keçirilən, mühüm dövlət əhəmiyyətli hadisə hesab olunan əhalinin siyahıyaalınması 2019-cu il 1-10 oktyabr tarixlərində keçiriləcəkdir.**

Bu mühüm dövlət əhəmiyyətli məsələ ilə bağlı "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti 2016-cı il 7 sentyabr tarixli 1040 nömrəli Fərman imzalamışdır. Fərmandan irəli gələn məsələlərə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli 517 nömrəli qərarı ilə əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmişdir. Ayrı-ayrı nazirlik, komitə, yerli icra hakimiyyətlərinə, idarə və təşkilatlara dəqiq icra müddəti göstərilməklə vəzifələr müəyyən edilmiş, tapşırıqlar verilmişdir. Əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənməsi, nəticələrinin dərc edilərək yayılması Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə həvalə olunmuşdur.

Siyahıyaalmaya hazırlıq işlərinin və digər tədbirlərin vaxtında yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək məqsədi ilə Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçıları müavinlərinin sədrliyi ilə əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaradılmışdır. Əhalinin siyahıyaalınmasına yardım üzrə mərkəzi komissiyanın tərkibinə Dövlət Statistika Komitəsi də daxil olmaqla 21 nazirlik, komitə və s. idarə-təşkilatların nümayəndələri daxil edilmişdir.

Nazirlər Kabinetinin qərarı ilə nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədi ilə Dövlət Statistika Komitəsinin 17 yanvar 2017-ci il tarixli 01/05s nömrəli sərəncamı ilə icrası 2017-2022-ci illəri əhatə edən "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının hazırlanıb keçirilməsi üzrə təqvim planı" təsdiq edilmişdir, təqvim planı üzrə nəzərdə tutulmuş tədbirlərin icraçıları və onların icra müddətləri müəyyən olunmuşdur. Bu il keçiriləcək əhalinin siyahıyaalınmasının sənədlərinin işlənməsi Azərbaycan Respublikasının qanunvericiliyinə, beynəlxalq təcrübədə qəbul olunmuş metodologiyaya, BMT-nin 2020-ci il raundunda əhalinin və mənzil fondunun siyahıyaalınmasına dair Avropa Statistikləri konfransının tövsiyələrinə və MDB Statistika komitəsinin metodoloji sənədlərinə əsaslanır. İlkin olaraq 2019-cu ildə əhalinin siyahıyaalınması və sorğu vərəqələri işlənib hazırlanaraq rəy və təkliflərini bildirmək üçün müvafiq nazirlik və komitələrə göndərilmiş, alınan rəylər ümumiləşdirilmişdir. Siyahıyaalma vərəqində müşahidə proqramına uyğun olaraq suallar nəzərdə tutulur. Suallara verilən cavabların əksəriyyəti rəqəmlərlə, bəziləri isə (milliyyəti, məşğulluğu, iş yeri) sözlə yazılır. Siyahıyaalma vərəqindən istifadə olunmaqla əhalinin ənənəvi metodla siyahıya alınması ilə yanaşı, digər metodlardan da istifadə edilir. Belə ki, dünyanın bir sıra ölkələrində siyahı (cədvəl), habelə digər inzibati mənbələrdən və müayinələrdən (başdan-başa, yaxud da seçmə müşahidəsi) istifadə olunur.

İndi isə siyahıyaalmanın ölkəmiz üzrə tarixi xronologiyasına nəzər salaq: Məlum olduğu kimi, indiki müstəqil Azərbaycan təqribən 200 ilə yaxın bir müddətdə əvvəlcə Çar Rusiyasının, sonra isə keçmiş Sovet İttifaqının tərkibində olmuşdur. Odur ki, bu dövrdə əhalinin siyahıyaalınması sahəsində görülən işlərin nəzərdən keçirilməsi az əhəmiyyət kəsb etmir. SSRİ dağıldıqdan sonra indiki müstəqil dövlətlərin hamısında bir və ya iki dəfə əhalinin siyahıya alınması aparılmışdır. Azərbaycan Respublikasında bu çox mühüm dövlət əhəmiyyətli tədbir 1999 və 2009-cu illərdə həyata keçirilmişdir. Hər iki halda ailə üçün nəzərdə tutulan siyahıyaalma vərəqindən istifadə olunmuşdur. Əhalinin siyahıyaalınması statistika işləri təcrübəsində ən mürəkkəb məsələlərdən biridir. Siyahıyaalma ölkədə hər hansı bir tarixə əhalinin sayı, habelə demoqrafik, iqtisadi və sosial vəziyyəti haqqında məlumatların toplanması, işlənməsi, qiymətləndirilməsi, təhlili və dərc olunması problemlərini əhatə edir. Bu prosesin fərqləndirici cəhəti ondan ibarətdir ki, o, heç bir sənəd təqdim olunmadan hər bir şəxsin həyat və fəaliyyətini səciyyələndirən məlumatların toplanmasına imkan verir. Əhalinin sayı, onun ölkə ərazisində yerləşməsi və tərkibi haqqında dəqiq və ətraflı məlumatın əldə edilməsi, sosial-iqtisadi proqramların işlənib hazırlanması, elmi-tədqiqat işlərinin aparılması və s. həyata keçirilməsi üçün lazımdır. Əhalinin siyahıyaalınmasının aşağıdakı səciyyəvi cəhətləri vardır: - hər bir şəxs fərdi qaydada siyahıya alınır və bununla da ona ətraflı xarakteristika vermək mümkün olur; - ölkədə və ya onun ərazisinin hər hansı bir hissəsində (məsələn, iqtisadi rayonlarda) yaşayan əhali tam əhatə olunur; - siyahıyaalma eyni vaxtda aparılır, əhali haqqında məlumatların konkret olaraq ilin hansı ayına, ayın hansı gününə, günün hansı saatına toplanması müəyyən edilir; - müşahidənin proqramı ilə onun aparılması metodu arasında tam qarşılıqlı əlaqə yaradılır. Bu, o deməkdir ki, əldə edilən məlumatların sənədləşdirilməsi və ümumiləşdirilməsinin vahid sistemi işlənib hazırlanır; - siyahıyaalma mərkəzləşdirilmiş qaydada aparılır. Bütün mərhələlərdə müəyyən edilmiş işlər nəzərdə tutulmuş müddətlərdə yerinə yetirilir, tərtib olunan proqramın istifadə olunan metoda uyğun gəlməsi prinsipinə tamamilə riayət edilir; - siyahıyaalmanın aparılmasının dövriliyinə əməl olunur. Müqayisəli məlumatların müəyyən ardıcıllıqla əldə edilməsi üçün siyahıyaalmanın on ildə bir dəfədən az olmamaqla aparılması məqsədəuyğun hesab edilir. Əhali haqqında məlumatların əldə edilməsi üçün ilk mənbə əhalinin siyahıyaalınmalarıdır. Əhalinin sayının cari hesablanması əhalinin son siyahıyaalmasının yekunları əsasında aparılır və hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Növbəti siyahıyaalmanın yekunlarına əsasən əvvəlki siyahıyaalınmadan sonrakı dövrdə əhalinin sayı və tərkibi üzrə müvafiq dəqiqləşdirmələr aparılır.

Azərbaycanda əhalinin sayı 1999-cu ildə 7 953 000 (şəhər - 51%, kənd - 49%), 2009-cu ildə 8 922 447 (53,1% şəhər, 46,9% kənd), ilin əvvəlindən isə ölkə əhalisinin sayı 13387 nəfər, yaxud 0,1% artaraq 2018-ci il mart ayının 1-i vəziyyətinə 9 911472 nəfərə (52,9% şəhər, 47,1% kənd) çatmışdır. Əhalinin siyahıya alınmasının müvəffəqiyyətlə aparılması və uğurla başa çatdırılması xeyli dərəcədə onun məqsədi və əhəmiyyəti, aparılması qaydası və müddətləri haqqında kütləvi informasiya vasitələrində yaxşı təşkil olunmuş izahat işlərindən asılıdır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2017-ci il 29 dekabr tarixli 08/SQs nömrəli sərəncamı ilə təsdiq olunmuş 1-şəhər, 2- kənd, 2-kənd formaya əlavələr rayon və şəhərlərdən (icra nümayəndəliklərindən) qəbul edilərək yekunlaşdırılmışdır. Bu formalarda hər bir şəhər (rayon) və kənd inzibati ərazi dairələri üzrə binaların, yaşayış evlərinin, tikililərin, daimi və müvəqqəti yaşayan əhalinin sayı qeyd olunur. 1-t - 9-t formaları, şəhər, rayon və kənd inzibati ərazi vahidlərinin təşkilat planları, sxem planları, ümumi xəritələri yerlərdə işlənilir. Təlimatlandırma və izahat işlərini Əhalinin Siyahıyaalma Qrupunun mütəxəssisləri şəhər və rayon statistika idarələrinin əməkdaşları ilə mütəmadi olaraq aparır. Bununla bağlı olaraq Siyahıyaalma Qrupunun mütəxəssisləri təşkilat planının düzgün tərtib olunması, eyni zamanda ümumi xəritələrin siyahıyaalma və təlimatçı məntəqələrinə bölünməsi, sxem planlarda siyahıyaalma, təlimatçı və sayıcı məntəqələrinin düzgün bölgüsünün aparılması, sərhədlərinin düzgün qeyd olunması ilə əlaqədar respublikanın şəhər və rayonlarına ezam olunurlar. Bu təlimatla bağlı Əhalinin Siyahıyaalma Qrupunun Baş iqtisadçı Lütfəli Əliyev və Aparıcı iqtisadçı Pərviz Usubov Şabran rayonuna 3 günlük ezam olunduq. Bu müddət ərzində Şabran Rayon Statistika idarəsinin əməkdaşlarının, şəhər və kənd icra nümayəndələrinin iştirakı ilə geniş tərkibdə iclas təşkil etdik. İclasda siyahıyaalmaya hazırlıq işləri, təşkilat planı, sxem planların düzgün tərtib olunması haqqında ətraflı və dolğun məlumat verdik. Şəhər və kənd icra nümayəndələrini maraqlandıran suallara dolğun cavablar verildi, sxem planlar üzərində əyani şəkildə izahatlar və işlənməsi barədə metodoloji göstərişlər verdik. Növbəti günlərdə isə 1-şəhər və 2-kənd formalarının məlumatları əsasında tərtib olunacaq sxem planların məlumatlarını 1t-9t formalarına düzgün yazılışını əyani olaraq formalar üzərində izah etdik və rayon statistika idarəsinin əməkdaşlarını, şəhər və kənd icra nümayəndələrini bu mövzu ilə bağlı maraqlandıran suallarına ətraflı və dolğun cavablar verdik. Bununla da Şabran rayonu üzrə təyin olunan üç günlük ezam müddətində təlimatlandırma işini uğurla başa vurduq.

**Pərviz USUBOV,**
**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Siyahıyaalma Qrupu.**

# Növbəti hərrac baş tutdu: hansı dövlət əmlakları özəlləşdirildi?

